# Sağlam balalar – ümidli gələcək

**1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə hemofiliyalı, talassemiyalı və leykoz xəstəliyindən əziyyət çəkən uşaqlar üçün qanvermə aksiyası keçirilib.**




Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən verilən məlumata görə, aksiyada donorların və tibb işçilərinin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirlər görülüb, könüllülər tibbi müayinədən keçirilib, infeksion xəstəliklərə qarşı yoxlama aparılıb. Aksiyada işçtirak edən könüllülərdən 6 litr qan toplanılaraq Naxçıvan Muxtar Respublikası Xəstəxanasının qan bankına təhvil verilib. Xeyirxahlıq aksiyası muxtar respublikada yaşayan irsi qan xəstəliyi olan hemofiliyalı, talassemiyalı və leykoz xəstəliyindən əziyyət çəkən uşaqlara dəstək məqsədi daşıyır.

Qeyd edək ki, adıçəkilən humanist aksiya artıq11 ildir ki, təşkilatçılar tərəfindən mütəmadi olaraq 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar keçirilir.

*

**1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Ordubad Rayon İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Uşaqlar bizim gələcəyimizdir" adlı tədbir keçirilib.**

Tədbirdə uşaq hüquqlarını qoruyan müvafiq təşkilatların əməkdaşları, 2022–2023-cü tədris ilində Ordubad rayonu üzrə fərqlənən şagird və müəllimləri iştirak edib. Ordubad Rayon Mədəniyyət sarayında keçirilən tədbirdə rayon İcra Hakimiyyəti başçısının müavini Rəşadət Orucov və Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova çıxış edərək "1 iyun - Uşaqları Beynəlxalq Müdafiə Günü"nün yaranması tarixindən, tədbirin əhəmiyyətindən bəhs edib, muxtar respublikada uğurla həyata keçirilən dövlət uşaq siyasətindən, uşaqlara göstərilən hərtərəfli diqqət və qayğıdan ətraflı danışıblar.

Tədbirdə Ordubad rayonu üzrə 2022–2023-cü tədris ilində müxtəlif sahələrdə nailiyyət qazanmış uşaqlara, eyni zamanda şəhid ailələrinin uşaqlarına təşkilatçılar tərəfindən hədiyyə və fəxri fərman təqdim edilib.

Sonra tədbir bədii hissə ilə davam edib, istedadlı uşaqların rəsm və əl işlərindən ibarət sərgiyə baxış olub.

**Səbuhi HƏSƏNOV**

Xalq qəzeti .- 2023.- 1 iyun.- S.17.